# Bakıda keçirilən genişmiqyaslı tədbirin dünya ölkələri üçün əhəmiyyəti var

**Noyabrın 16-da Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən məhkəmə seminarında iştirak etmək üçün Bakı şəhərinə səfər edən Belçika Krallığının Konstitusiya Məhkəməsinin sədri Lük Lavrysen ilə görüş keçirib.**

Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən bildirilib.

Sədr Fərhad Abdullayev Bakıda keçirilən genişmiqyaslı tədbirin bütün dünya ölkələri üçün əhəmiyyətini qeyd edib. O, Konstitusiya Məhkəməsinin fəaliyyəti haqqında məlumat verərək iki ölkə arasında məhkəmə-hüquq əməkdaşlığının vacibliyini qeyd edib. Ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılan islahatlar, həmçinin insan hüquqlarının təmin olunması sahəsində məhkəmələrin qarşısında duran vəzifələrin əhəmiyyətini vurğulayıb. Görüşdə Konstitusiya məhkəmələrinin məhkəmə təcrübəsində ətraf mühitin qorunması ilə bağlı qərarlar barədə fikir mübadiləsi aparılıb.

Lük Lavrysen Azərbaycanın COP29-a evsahibliyi etməsini yüksək qiymətləndirib.

O, gələcəkdə də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə əməkdaşlığın faydalı olacağına ümid etdiyini və qarşılıqlı əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayıb.

Görüşün sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar.

---

Azərbaycan.- 2024.- 17 noyabr (№ 253).- S.8.